


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 73 (24.210)

*27 aprel 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İkinci Dünya müharibəsində Qələbənin 78-ci ildönümü ilə əlaqədar **qərara alıram:**

1. 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1 500,0 (bir min beş yüz) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın məharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750,0 (yeddi yüz əlli) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

nafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya mü-

2. Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədilə:

2.1. Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 2,9 milyon (iki milyon doqquz yüz min) manat vəsait ayrılsın;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş vəsaitin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;

2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə ödənilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 26 aprel 2023-cü il*

## Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib

*Naxçıvan Dövlət Universiteti Xarici dillər fakültəsinin İngilis dili və metodika kafedrasının təşkilatçılığı ilə "Dil bacarıqlarının inkişafında yeni texnika və metodların tətbiqi" mövzusunda elmi-praktiki respublika konfransı keçirilib.*



Ali təhsil müəssisəsinin rektoru, dosent Elbrus İsayev çıxış edərək ölkəmizdə görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən konfransların davamlı xarakter aldığını vurğulayaraq bildirib ki, keçirilən bu konfrans dövlətimizin reallaşdırdığı təhsil konsepsiyasının mühüm tərkib hissələrindən biridir. Qeyd edilib ki, qloballaşan dünyada Azərbaycan təhsilinin dünya təhsil və elm məkanına inteqrasiyası, elmi əməkdaşlıq xarici dillərin öyrənilməsini daha da aktuallaşdırıb. Rektor ali təhsil ocağının bir sıra xarici universitetlərlə həyata keçirilən proqram və layihələrindən bəhs edib, konfransın işinə uğurlar arzulayıb.

Konfransda fakültənin dekanı, dosent Şirməmməd Qulubəyli, İngilis dili və metodika kafedrasının müdiri Cavid Babayev, tədbirə onlayn qoşulan Azərbaycan Dillər Universitetinin Alman dilinin leksikologiyası və üslubiyyatı kafedrasının dosenti Ulduz Aslanova, Naxçıvan Dövlət Universitetinin İngilis dili və tərcümə kafedrasının müəllimi, dissertant Elçin Mirzəyev və Sinxron tərcümə ixtisası üzrə I kurs magistrant Leyla İsmayılovanın çıxışları dinlənilib. Tədbirdə xarici dillərin tədrisində müasir metodlardan istifadənin məqsədi, xarici dillərin tədrisinin aktual problemləri və sair kimi mövzular barədə ətraflı söhbət açılıb.

Sonra konfrans ənənəvi və onlayn olmaqla bölmə iclasları ilə davam edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

* * *



*Əlahiddə Ümumqoşun Ordunun təşkilatçılığı ilə Babək rayonunda "Ulu Öndər Heydər Əliyevin Ordu quruculuğu siyasəti" mövzusunda tədbir keçirilib.*

Əvvəlcə Ümummilli Liderin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər bildiriblər ki, Azərbaycanda güclü və yüksək döyüş hazırlığına malik Milli Ordunun yaradılması Ulu Öndərin adı ilə bağlıdır. Dahi rəhbərin həyata keçirdiyi məqsədyönlü siyasət və islahatlar nəticəsində digər sahələrdə olduğu kimi, ordu quruculuğunda da böyük nailiyyətlər qazanılıb, peşəkar, yüksək səviyyəli nizami ordu formalaşdırılıb.

Bildirilib ki, ötən əsrin 70-ci illərində Ulu Öndərin birbaşa təşəbbüsü ilə Bakıda ilk ibtidai hərbi məktəb olan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması respublikamızın həyatında mühüm hadisə oldu. Sonrakı illərin təcrübəsi göstərir ki, həmin təhsil müəssisəsi Azərbaycan gəncliyinin hərbi peşələrə marağının yüksəldilməsində müstəsna rol oynayıb. Məktəbin məzunları olmuş minlərlə zabit müstəqillik dövründə Milli Ordumuzun formalaşmasında, torpaqlarımızın müdafiəsində qəhrəmanlıqlar göstərib. Müstəqillik illərində ilk nizami Milli Ordu da məhz Ümummilli Liderimizin rəhbərliyi ilə Naxçıvanda yaradılıb.

Tədbirdə qeyd edilib ki, Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası möhkəmləndirilib, Azərbaycan Ordusu regionun ən qüdrətli ordusuna çevrilib. 44 günlük Vətən müharibəsindəki parlaq Qələbə ordumuzun gücünün və qüdrətinin göstəricisidir.

Tədbirin davamında hərbçi övladlarının ifasında Ulu Öndərimizə həsr olunmuş şeirlər dinlənilib.

Sonda "Heydər Əliyev Ordu quruculuğu siyasəti" mövzusunda sənədli filmə baxış olub.

**Muxtar RZAZADƏ**

## Naxçıvan Muxtar Respublikasında qeydiyyata alınmış vergiödəyicilərin sayı 2,3 dəfə artıb



Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin məlumatına əsasən 2023-cü ilin yanvar-mart aylarında muxtar respublikada 1.441 yeni vergiödəyicisi qeydiyyata alınıb. Bunların 87,6 faizi fiziki şəxslər, 12,4 faizi hüquqi şəxslər və digər təşkilatlar olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qeydiyyata alınmış vergiödəyicilərin sayı 2,3 dəfə, o cümlədən fiziki şəxslərin sayı 2 dəfə, hüquqi şəxslərin sayı isə 36 dəfə artıb.

Cari ilin birinci rübündə kommersiya qurumlarının 40 faizi elektron qaydada, 60 faizi kağız daşıyıcılar vasitəsilə edilmiş müraciətlər əsasında uçota alınıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

*"Naxçıvan" Universiteti ilə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) arasında əməkdaşlıq müqaviləsi imzalanıb.*

## Əməkdaşlıq müqaviləsi imzalanıb



Bu münasibətlə UNEC-in rektoru, professor Ədalət Muradov, universitetin Tədris üzrə prorektoru, dosent Gəray Musayev və Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektoru dosent Neman Muradlı "Naxçıvan" Universitetində olublar.

"Naxçıvan" Universitetinin mövcud infrastrukturu ilə tanış olan rektor, professor Ədalət Muradov universitetin təhsil modelini yüksək qiymətləndirib.

Tanışlıqdan sonra ali təhsil ocaqları arasında əməkdaşlıq müqaviləsinin imzalanma mərasimi keçirilib.

Tədbirdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

"Naxçıvan" Universitetinin rektoru, dosent Anar Kazımov bildirib ki, bağlanan müqavilə hər iki ali təhsil müəssisəsi arasında əlaqələrin möhkəmlənməsinə əlverişli şərait yaradacaq və elmi layihələrin həyata keçirilməsinə təkan verəcək. Rektor rəhbərlik etdiyi ali təhsil müəssisəsinin fəaliyyəti, buradakı təhsil, tədris prosesi, kadr hazırlığı istiqamətləri və mövcud ixtisaslar barədə məlumat verərək tədrisin keyfiyyətinin artırılması, elmi fəaliyyətin səmərəliliyinin yüksəldilməsi və universitet idarəçiliyində innovativ metodların tətbiq edilməsi istiqamətində islahatların aparıldığını bildirib. Dünya səviyyəli universitet olmaq yolunda sürətlə irəliləyən UNEC-lə əməkdaşlığın "Naxçıvan" Universiteti üçün mühüm faydalar verəcəyinə əminliyini bildirən Anar Kazımov tərəfdaş kimi hərtərəfli qarşılıqlı əməkdaşlığın reallaşdırılması üçün bütün imkanlardan istifadə ediləcəyini vurğulayıb.

Rektor, professor Ədalət Muradov UNEC-in beynəlxalq əlaqələri, ikili diplom proqramları, beynəlxalq reytinqlərdəki mövqeyi barədə ətraflı məlumat verib. UNEC müəllimlərinin elmi fəaliyyətinin stimullaşdırılması, Diferensial Əməkhaqqı Sistemi, müəllimlərin pedaqoq və müəllim-tədqiqatçı kimi fərqləndirilməsi, elmi fəaliyyətin təşviqi istiqamətində tətbiq olunan digər yeniliklər iştirakçıların diqqətinə çatdırılıb, bu təcrübənin "Naxçıvan" Universiteti üçün də faydalı olacağı bildirilib.

UNEC-in fəaliyyət istiqamətlərində regional universitetlərlə əməkdaşlığın prioritet olaraq müəyyənləşdirildiyini qeyd edən Ədalət Muradov universitetin regional universitetlərlə əməkdaşlıqda dünya praktikasında qəbul olunan yeni yanaşma ilə çıxış etdiyini, ikili diplom proqramının bu əməkdaşlığın əsas hədəfi olduğunu bildirib. UNEC ilə "Naxçıvan" Universiteti arasında əməkdaşlığın uğurlu olacağını bildirən professor Ədalət Muradov, bu ali təhsil müəssisəsinin ölkənin təhsil sistemində və regional universitetlər arasında qısa müddətdə qabaqcıl universitetə çevriləcəyindən əminliyini ifadə edib.

İmzalanan əməkdaşlıq müqaviləsində universitetlər arasında müəllim və tələbə mübadiləsinin aparılması, birgə ikili diplom proqramlarının reallaşdırılması, elmi-tədqiqat işlərinin görülməsi və elmi konfransların təşkili nəzərdə tutulur. Distant təhsil, elektron universitet modeli, informasiya texnologiyaları sahəsində əməkdaşlığın genişləndirilməsi, universitetlər arasında antiplagiat sahəsində təcrübə mübadiləsinin aparılması da müqavilədə öz əksini tapıb. Danışıqların nəticəsi olaraq qeyd edilən layihələrin reallaşdırılması məqsədilə mütəmadi işgüzar görüşlər keçiriləcək. Belə görüşlərin keçirilməsinin əsas məqsədi "Naxçıvan" Universitetinin UNEC kimi digər universitetlərlə də əlaqələrinin təkmilləşdirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin aparılmasıdır.

İmza mərasimindən sonra qonaqlar tələbələrin ifasında maraqlı şeir və musiqi nömrələrini izləyiblər.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

2023-cü il "Heydər Əliyev İli"dir

# Xüsusi dövlət əhəmiyyətli tapşırıq

## (IV hissə)

*(əvvəli qəzetin 8 mart, 29 mart, 4 aprel 2023-cü il tarixli nömrələrində)*

*... "Volqa" mehmanxananın dayanacağında idi. Saat 3[00]-da rus zabitlərini evlərindən götürüb yola çıxdıq. Şəhərin çıxışında treyler bizi müşayiət etməyə başladı. Sürücünün yanında mən, arxada ruslar əyləşmişdi. Saatda 60-80 kilometr sürətlə gedirdik. Cəlilabada yaxınlaşırdıq, çiskin yağış yağırdı. Sübh açılmışdı. Ruslar mürgüləyirdilər. Yolumuz uzun olduğu üçün Vaqifi söhbətə tutmuşdum ki, yuxulamasın. Birdən mənim önümdəki təkər yerindən çıxdı. Qarşıdan ara-sıra avtomobillər keçirdi. "Volqa" sürüklənməyə başladı, arxamızca gələn treyler bizə yaxınlaşırdı. Avtomobil yolun əks tərəfinə sürüklənirdi. Vaqif əyləci sıxmışdı. Xoşbəxtlikdən qarşıda avtomobil yox idi, yoxsa birinci məni vuracaqdı. Rusların qorxudan rəngləri ağarmışdı. Mən də qorxmuşdum, belə namərdcəsinə ölmək istəmirdim. Treyler bizə beş-on metr məsafədə dayandı. "Volqa"ya baxış keçirdik. Vaqif maşının təmirdən yeni çıxdığını dedi. Bütün şübhələr təkərin boltlarının boşaldılması üzərində dayandı. Bunun kimin tərəfindən edildiyi mənə artıq məlum idi. Əməliyyatı başa çatdırıb, rusları sağ-salamat geri qaytarmalı idim. Onlarla görəcək işlərimiz çox idi. Sağ-salamat Gəncəyə qayıtdıq. Səhərisi gün Hüseyn Əlizadəgilə getdim. Saat 20[30]-da Ali Məclisin Sədri ilə telefonla danışmalı idim. Hüseyn müəllimdən respublikadakı vəziyyətlə bağlı soruşanda o, parlamentdə Azərbaycan xalqının mənafeyinə zidd bir qərarın qəbul edildiyini bildirdi. Ölkəmiz prezident seçkilərinə hazırlaşırdı. Seçkilərdə böyük siyasi xadim Heydər Əliyev iştirak etməsin deyə namizədlərə yaş məhdudiyyəti qoymuşdular. 70 yaşdan yuxarı namizədin seçkilərdə iştirakının qarşısı alınmışdı. Parlament Azərbaycan xalqının əleyhinə qərar qəbul etmişdi. Surət Hüseynovun nəyə görə məni qəbul etməməsini, qohumu Kəramətin düşmən münasibətinin səbəbləri artıq mənə məlum oldu. Surət Hüseynovla bir daha görüşmədim.*

Təyin olunmuş vaxtda telefona zəng gəldi. Mən telefonun dəstəyini qaldıranda Hüseyn müəllim televizorun səsini kəsdi, Tükəzban xanım diqqətini üzümdə cəmləşdirdi. Salamlaşandan sonra Ulu Öndər işlərin gedişi ilə maraqlandı. Hər şeyin qrafik üzrə getdiyini bildirdim. Sabah Naxçıvana gələcəyimi dedim. İki dəfə gəl, gəl, – dedi. Sonra sabaha səngərlərdə döyüşən əsgərlərimizin mərmilərinin bitəcəyini söylədi. Avtomobillər saat 10[00]-da aeroportda olsun, – dedim, sağollaşıb dəstəyi yerinə qoydum. Tükəzban xanım mətbəxə keçmişdi. Süfrəni hazırlamaq istəyirdi. Hüseyn müəllim narahatlığımı hiss etmişdi, nə olub? – deyə soruşdu. Ona, təcili getməliyəm, – dedim, ucadan Tükəzban xanımla sağollaşıb evdən çıxdım. Eldəniz qarşı tində məni gözləyirdi. Polkovnikin evinə sür, – dedim. Ürəyimdə "bu gün sarıqulağı öldürəcəyəm" düşüncələri ilə polkovniki çölə çağırdım. İstəyimi ona bildirdim, dedi səhərə qalsın. Hirslə, bu saat istəyirəm, – deyəndə "Yük maşının varmı?" – deyə soruşdu. Var, – dedim. Gecə yarısı görüş yerini təyin etdik. Oradan ayrılıb Elşənin atası Şubay kişinin evinə getdik. Yatmamışdı. Dahi şəxsiyyət Heydər Əliyevlə görüşmək istəyirsən? – deyə soruşdum. Əlbəttə, – dedi. Həyat yoldaşı Kifayət xanım, mən də gedəcəyəm, – deyə səsləndi. Şubay kişiyə, yük maşınını hazırla və iki nəfər yanına al, bir saat sonra dediyim ünvana gəl, – deyib evdən çıxdım. Görüş yerinə 200 metr qalmış Eldənizə avtomobili saxla, – dedim. Ətrafı diqqətlə nəzərdən keçirdim, sakitlik idi. Birazdan Şubay gəldi. Mühərriki söndür, – dedim. Sakitliyi "Zil-131" yük maşınının səsi pozdu. Polkovnik maşından enəndə ona yaxınlaşdım. Yük maşınınız haradadır? – deyə soruşanda işarəmlə Şubay yaxınlaşdı. Saat yarım ərzində iki dəfə Şubayın yük maşını dolub, aeroporta boşaldı.

Səhər açılmışdı. Saat 9[00]-da Şubay kişi həyat yoldaşı Kifayət xanımla əllərində 2 ədəd səbət təyyarəyə mindilər. Səbətlərdə Ümummilli Liderimizə Gəncə sovqatı aparırdılar. Mənim sovqatım isə səngərlərdə döyüşən qəhrəman əsgərlərimizə 600 min ədəd 5.45 və 7.62 avtomat mərmiləri idi.

Naxçıvan Hava Limanında bizi səbirsizliklə gözləyirdilər. Əsgərlərimiz təyyarəyə yaxınlaşan böyüklü-kiçikli avtomobilləri yükləyib cəbhəyə döyüş bölgəsinə yola salırdılar. Adətən, yüklər anbara göndərilirdi. İndi isə vəziyyət belə tələb edirdi. Altı dəfə belə hal baş verdi. Naxçıvan belə qorunurdu, təpədən dırnağadək silahlanmış düşmənin qarşısında əliyalın olsa da, geri çəkilmək, düşmənin qabağından qaçmaq yox idi. Qanları, canları bahasına əsgərlərimiz, polislərimiz, könüllülərimiz, yerli əhali Naxçıvanı qəhrəmancasına qoruyurdular. Onların qarşısında baş əyməmək mümkün deyildi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin nüfuzlu xidmətinin rəisi İsrafil Əsgərovla görüşüb, ikinci mərtəbəyə qalxdım. Dəhlizdə Ulu Öndərin köməkçisi ilə görüşdüm. Qoluma girib kabinetinə dəvət etdi. İlk sualı o oldu ki, belə getsə, düşmənin qarşısında dayana biləcəyikmi? Ona yaxın zamanda çox ciddi dəyişikliklər olacağını söylədim. Qarabağda gedən şiddətli döyüşlər barədə məlumat verdim. Söhbətimiz bir saatdan çox çəkdi. Mənə bir mühüm problemin olduğunu bildirdi. Heydər Əliyevin həyatı təhlükədədir, – dedi. Ancaq o, bu böyük insanı düşünürdü. Nə etmək lazımdır? – deyə ondan soruşanda təxirəsalınmaz tədbirləri qeyd etdi. İkinci dəfə idi ki, o, Ulu Öndərlə bağlı mənə müraciət edirdi. M.S.Qorbaçov Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçiləndən sonra xalqımızın böyük oğlu Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırılaraq istefaya göndərilmişdi. Rus xalqının bu dahi insana böyük rəğbəti olsa da, Qorbaçov Ona həsəd aparırdı. Ümummilli Lideri nüfuzdan salmaq üçün ona qarşı mərkəzi qəzetlərdə, o cümlədən respublikamızdakı rəsmi qəzetlərdə məqalələr dərc etdirirdilər. 1988-ci ildə bir şəxs mənə yaxınlaşıb dedi ki, sən rus dilini yaxşı bilirsən. Moskvaya-Kremlə Heydər Əliyevə qarşı aparılan çirkin iftiralara son qoyulması ilə bağlı bir teleqram göndərə bilərsən? – deyəndə qəti cavab verdim ki, nəinki öz adımdan, ətrafımdakı dostlarımın da ürəyindən olar ki, onların da adından bu çirkin iftiralara etiraz teleqramları göndərim. Bu kampaniya təkcə bu dahi insanın özünə qarşı yönəlməmişdi. Onun yaxınları da təqib olunur, işdən çıxarılırdı. Oğlu da işindən uzaqlaşdırılmışdı. Moskvada biznes fəaliyyəti ilə məşğul olurdu.

...Keçən əsrin ortalarında atamla Payız kəndindən olan qohumu Qurban Abbasov Bakı şəhərinə gedirlər. Atam Mərdəkanda Milis Məktəbinə daxil olur, Qurban Abbasov isə neft mədənlərində əmək fəaliyyətinə başlayır. Sonralar Qurban Abbasov nəinki sovetlər məkanında, hətta dünyada tanınmış neftçi olur. Atam isə milis məktəbini hüquqşünas kimi bitirərək Naxçıvanda daxili işlər orqanlarında fəaliyyətə başlayır. Dediyinə görə o zaman şəhər milis idarəsində işləyən ermənilər çox narahat olmuşdular. Ona "Biz burada acından ölürük, Əlican, gəl sənə on baş qoyun alaq, get kəndinə" – deyirdilər. Atam onları çox yaxşı tanıyırdı. Atası Kərbəlaya getmişdi. Cəhri kəndində yaşayan anasının dayısı Kərbəlayı Kərim isə dövrünün ən igid adamlarından biri idi. Naxçıvanı qoruyan, erməniyə qan udduran bir qəhrəman idi. Bir gün "Şərq qapısı" qəzetinin keçmiş baş redaktoru, yazıçı Akif Axundov mənə zəng edib görüşmək istədiyini bildirdi. Görüş zamanı XX əsrin əvvəllərində Naxçıvana Türkiyədən gəlmiş bir zabit haqqında məlumat toplayıb kitab yazmaq istədiyini söylədi, amma kifayət qədər məlumatı olmadığı üçün ona kömək etməyimi xahiş etdi. Söhbət Veysəl Ünüvardan gedirdi. Naxçıvanda hərbi attaşe kimi çalışan Mehmet albaya müraciət etdim. On gün sonra Mehmet albay mənə 1948-ci ildə general Veysəl Ünüvarın yazdığı "İstiklal hərbində bolşeviklərlə səkkiz ay 1920-1921" kitabını verdi. Kitabın 31-ci səhifəsində general Kərbəlayı Kərimdən bəhs edirdi. Kitabı atama göstərəndə gözləri dolmuşdu. Kitab Naxçıvanda yenidən nəşr olundu. Türkiyənin Naxçıvandakı Baş Konsulu mənə məktub göndərdi:



"Sayın Urfullah Gurbanov,

1920-1921 yılları arasında Nahçıvan Türklerinin Kazım Karabekir Paşaya bağlı Şark Cephesi Komutanlığına bağlı Binbaşı Veysel Ünüvar komutasındaki Türk askerleriyle birlikte ermenilere karşı verdikleri kahramanca mücadele 1948 yılında Veysel Ünüvar Paşa tarafından "İstiklal Harbinde Bolşeviklerle Sekiz Ay (1920-1921)"adıyla bir kitap haline getirilmiştir.

1920-1921 yıllarında Ermenilere karşı verilen mücadelenin özellikle genç nesillerin dikkatine getirilmesi ve atalarımızın dönemin zor şartlarında verdikleri kahramanca mücadelenin daha iyi anlaşılması açısından sözkonusu eser, doğumunun 125. Yıldönümü münasebetiyle Büyük Önder Atatürke ithafen Filoloji İlimleri Doktoru Ebülfez Güliyevin çok değerli katkılarıyla Azerbaycan Türkçesine çevrilmiş olup, ekte sunulmaktadır.

Azerbaycan ve Türkiye Cümhuriyyetlerinin bağımsızlıklarını ebediyete kadar koruması dileğiyle saygılarımı sunarım.

İ. Sefa YÜCEER

Başkonsolos, 19 Mayıs 2006"

1918-ci ilin noyabrından 1919-cu ilin martınadək fəaliyyət göstərmiş Araz Türk Cümhuriyyətinin 20 taboru var idi. Onlardan birinə Kərbəlayı Kərim rəhbərlik edirdi. Atam bizim Aslanlı tayfasının davamçıları olduğumuzu deyirdi. İkinci Dünya müharibəsində bir nəsildən 17 qohumumuz geri qayıtmamışdı. Onlardan biri, hətta polkovnik rütbəsinədək yüksəlmişdi. 20 Yanvar hadisəsindən sonra Sovet hökumətinə qarşı atamda nifrət hissi yaranmışdı. Otuz iki il daxili işlər orqanlarında fəaliyyətdən təqaüdə çıxandan sonra atam fabrikdə Mülki müdafiə şöbəsinin rəisi işləyirdi. Uşaqlıqdan atam bizə birgə kəsilən çörəyə, dostluğa sədaqətli olmağı öyrətmişdi.

Bir dəfə yenə də uzaq qohumlarından biri Ulu Öndərimizin təhlükəsizliyi ilə bağlı narahatçılığını bildirdi. Əlbəttə, başqasına da deyə bilərdi, lakin mənə etimad edirdi. Axı biz dost idik. Təbii ki, qısa zamanda bütün təhlükəsizlik tədbirlərini həyata keçirdim. Yaranmış vəziyyət bizdən daha diqqətli olmağı tələb edirdi. Ertəsi gün gecə dahi şəxsiyyətin yaşadığı evi mühafizə edən əsgərlərimizi yoxlamağa gedəndə növbətçilərdən üç metr aralı atılmış "Belomor kanal" papirosunun qutusu gözümdən yayınmadı. Növbətçilərin ayaqlarının altında isə siqaret kötüklərini gördüm. Dərhal növbətçiləri dəyişdirdim. Elman bəylə görüşüb, tam fərqli kriteriyalarla növbətçilərin seçilib posta göndərilməsini razılaşdırdıq. Ulu Öndərin yolunda biz canımızdan keçməyə hazır idik. Bu gəlişi gözəl deyilmiş bir ifadə deyildi. Ümumiyyətlə isə bu böyük insanı bütün xalq, Naxçıvan əhalisi qoruyurdu.

Ali Məclisin Sədri ilə görüş zamanı ruslara aid hərbi hissələrdən nəinki müsəlman əsgərlərini, hətta xeyli rus əsgərlərini evlərinə göndərdiyimizi bildirdim. Mənə dedi ki, bu yaxınlarda Ukraynadan bir təyyarə gələcək, burada xeyli ukraynalı əsgər və zabit var, tezliklə onları da buradan köçürəcəyik.

Nəhayət ki, Goranboya planlaşdırdığım səfər baş tutdu. Goranboy o zaman Azərbaycanın ən şiddətli döyüşlər gedən rayonlarından biri idi. Sədərəyi Naxçıvanın qapısı hesab etdiyimiz kimi, Goranboyu da Gəncəbasarın qapısı adlandırmaq olar. Goranboylular da Vətənin müdafiəsində mətin dayanmışdılar. Şəhidlər olmuş, lakin bir qarış topağı düşmənə verməmişdilər. İcra başçısının qəbul otağında gözləri dolmuş yaşlı analarla bərabər, hərbçilər və məmurlar da var idi. Hamı tələsirdi. Pıçıltılardan tezliklə problemlərinin həll olunacağına ümidlər hiss olunurdu. Köməkçiyə Naxçıvandan gəldiyimi bildirdim. O, qəbulda bir qrup vətəndaş olduğunu, onlardan sonra başçının məni qəbul edəcəyini bildirdi. İrşad Əliyev məni gözlədiyimdən daha çox səmimiyyətlə, doğma qardaşı kimi qarşıladı. İlk diqqətimi cəlb edən İrşad müəllimin hərbi formada olması idi. Özümü təqdim etdim, vəsiqəmi göstərdim. Naxçıvandakı ağır iqtisadi və hərbi vəziyyətdən ətraflı danışdım. Hərbi ehtiyaclarımızdan söz açıb ondan kömək istədim. Bilirdim ki, onların da ehtiyacları var, amma İrşad müəllim bizə kömək edəcəyinə söz verdi. O dövr üçün ən zəruri ehtiyaclarımızın təxirəsalınmadan ödənilməsinə göstəriş verdi. Ən kritik zamanlarda yanına gəldiyimdə məni əliboş qaytarmadı. Gecəni qonaq evində qalmağımı təklif etdi. Mən batalyona getmək istədiyimi bildirdim. Qərargahda batalyon komandiri Rasim Ağayevlə (Azərbaycanın Milli Qəhrəmanı) görüşdüm. Çox yorğun və yuxusuz olmasına baxmayaraq, onunla xeyli söhbət etdik. Məni ən çox ermənilərin döyüş taktikaları maraqlandırırdı. Burada xaricdən gəlmiş muzdlular da bizə qarşı döyüşürdülər. Sonralar Goranboyda Fəxrəddin Məmmədovla tanış oldum. Çox vətənpərvər bir insandır Fəxrəddin müəllim. Bizə xeyli kömək etdi. Ertəsi gün iki dolu "Kamaz" markalı yük maşınla və bir ədəd zirehli texnika ilə Gəncəyə doğru yola çıxdım.

Aeroporta yenicə daxil olmuşdum ki, uçuş zolağının yanında üç əsgər və bir podpolkovnik gözümdən yayınmadı. Əllərində iki yeşik və bir dolaq naqil var idi. Hər şey aydın idi, burada minalama işləri aparırdılar. Siz burada nə işlə məşğulsunuz? – deyə soruşdum. Özlərini itirdilər. Əsgərlərdən birinin silahını aldım. Yeşiklərdə minalar var idi. Podpolkovnikə, hər birinizə bir mina bağlayıb partladacağam, – dedim. Onlarla çox sərt danışdım. Aeroportun yerüstü qurğularına xeyli ziyan vurmuşdular. Aeroportun rəhbərliyini ayağa qaldırdım. Şəhər rəhbərliyini, hüquq-mühafizə orqanlarının rəhbərlərini vəziyyətlə bağlı məlumatlandırdım. Təxirəsalınmaz tədbir kimi tabeliyimdə olan əsgərlərimi vəziyyət sabitləşənə kimi aeroportun mühafizəsinə cəlb etdim. Böyük bir təxribatın qarşısı alındı.

Rus hərbçilərdən biri mənə bir neçə "ekstremist" rusun yaxınlarda Gürcüstana bir maşın "yük" aparacaqlarını dedi. Deyilən gün şəhərdən, təxminən, 5 kilometr aralı yük maşınının qarşısını kəsdik. Maşını əllərindən alıb onları yolda buraxdıq. Yük maşınını aeroporta gətirdim. Rusların ermənilərə satmaq istədikləri 2 ədəd 100 millimetr kalibirli top və hərbi gəmidən söküklədiri "Zenit" qurğusu artıq Naxçıvana gedəcəkdi. Üç gün əvvəl Naxçıvanda Ulu Öndər Heydər Əliyevlə danışanda ona böyük bir yük təyyarəsinə ehtiyacın olduğunu bildirmişdim. Təyyarə sabah Özbəkistandan gəlməli idi.

Gəncədə şəhərin mərkəzində "Xalça" firması fəaliyyət göstərirdi. Firmanın direktoru Nəsrəddin Əliyev qeyrətli, vətənpərvər bir iş adamı idi. Nəsrəddin müəllimlə söhbət zamanı özü mənə kömək etmək istədiyini bildirdi. Vaxt itirə bilməzdim. Çünki yükümüz həm çox, həm də ağır idi. Hər bir mərminin çəkisi 100 kiloqram idi. Sabah bunu yükləmək üçün mənə kömək lazım olacaqdı. Kömək üçün Gəncə Şəhər Milis İdarəsinin rəisi, polkovnik Eldar Həsənovla (keçmiş baş Prokuror) görüşdüm. Sabah 30 nəfər yanğınsöndürən mənim sərəncamımda olacaqdı. Söhbət zamanı Eldar müəllim Kəlbəcərə kömək etdiyini bildirdi. Ruslardan bir ədəd 100 millimetr top mərmisini səkkiz min manata, avtomat mərmilərinin birini isə 20-30 manata aldıqlarını dedi. Ona Daşkəsən rayonunun prokuroru, əslən kəlbəcərli Nəbi Quliyevin mənə kömək üçün müraciət etdiyini demədim. Elşən Əliyevlə Nəbi müəllimin evində olmuşduq. Çox narahat idi. Elşənlə ona kömək etdik, lakin bizim yardımımız kifayət qədər deyildi. Səhər açılmışdı. Yusifə, məni aeroporta sən aparacaqsan, – dedim. Yenicə zala daxil olmuşdum ki, milis starşinası Nəbi Eyyubov mənə yaxınlaşdı. Onunla, qardaşları Eyyub və Bəylər Eyyubov (hazırda Azərbaycan Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisidir) yaxın münasibətim var idi. Nəbi mənə Ulu Öndərimiz Heydər Əliyevin Özbəkistanda Etibar adlı bir şəxsə yük təyyarəsi ilə bağlı zəng etdiyi barədə məlumat verdi. Bu gün təyyarənin gələcəyini bildirdi. Az sonra Eyyub müəllim də gəldi. Üçlükdə çay içib təyyarəni gözləməyə başladıq. Eyyub müəllim mənim xətrimi çox istəyirdi. Hər gün görüşməsək də, günaşırı görüşürdük. Dəfələrlə, təhlükədəsən, – deyə məni mehmanxanada gecələməyə qoymamışdı. Həyat yoldaşı Laləzar xanım evə gec gəlsək də, mənim üçün yemək hazırlamışdı. Beşmərtəbəli binanın birinci mərtəbəsində darısqal mənzildə yaşayırdılar. Allah Nəbiyə də, Eyyub müəllimə də rəhmət eləsin. Eyyub müəllimdən Etibar da gələcək? – deyə soruşdum. Xeyr, – deyə cavab verdi. Aydın məsələ idi ki, bu cür böyük təyyarələri ruslar idarə edirdilər. Tədbirli olmalı idim. Həyəcanlı olsam da, büruzə vermədim. Az sonra bir təyyarə endi. Bu bizim gözlədiyimiz deyildi. Aeroportun şöbə rəisi mənə yaxınlaşdı. Aeroportun komandiri Firudin Qasımov mənimlə görüşmək istəyirdi. Kabinetdə bir heyət var idi. Aralarında bir qadın və beş nəfər ekipaj üzvü. Yanacaq doldurmaq üçün eniş etmişdilər. Təyyarə Kiyevdən gəlmişdi. Bu təyyarə ukraynalı əsgər və zabitləri Naxçıvandan evlərinə aparacaqdı.

**(ardı var)**

**Urfullah QURBANOV**

***Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin Əks-kəşfiyyat şöbəsinin sabiq rəisi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi***

# Xalq yolunda yanan bir əsrlik şəfqət, zəriflik şöləsi

*Onun dərin mənalı və şərəfli həyat yolu, çoxşaxəli fəaliyyəti gələcək nəsillər üçün əsl nümunədir. Zərifə xanım Azərbaycan və dünya tibb tarixinə öz adını qızıl hərflərlə yazdırmış fədakar bir alim idi. Həmçinin Ulu Öndərimizin ömür-gün yoldaşı, gözəl ana, nümunəvi Azərbaycan qadını idi. Zəngin daxili aləmi, yüksək mənəviyyatı, həssas qəlbi onun əsl insan, həkim olmasından xəbər verirdi. Azərbaycanın qadın alimlərinin ən gözəl nümunəsi olan Zərifə xanım bütün həyatını insanlara işıq bəxş etməyə, onların dünyasını aydınlatmağa, yenidən həyata qaytarmağa həsr etmişdi.*



## Cəmiyyətə işıq bəxş edən alim ömrü

Görkəmli oftalmoloq, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Şahtaxtı kəndində anadan olmuşdur. Sonralar onlar atası Əziz Əliyevin işi ilə əlaqədar Bakıya köçmüşlər. Zərifə xanım 1932-1942-ci illərdə orta məktəbdə təhsil almışdır. Zərifə xanımın böyüdüyü sağlam ailə mühiti onun bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynamış, ixtisasca həkim olan atası və ətrafında böyüdüyü onun dostları, həmkarları Zərifə xanımın gələcək həyat yolunu müəyyən etməsində mühüm rol oynamışdır. Atası kimi həkim olmaq qərarına gələn Zərifə xanım təhsilini 1942-1947-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunda davam etdirir. 1949-1950-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən isə Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, 1982-1985-ci illərdə Görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, Oftalmologiya kafedrasının müdiri vəzifələrində çalışmışdır. Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda oftalmologiya sahəsində bir sıra qiymətli tədqiqatlar aparmışdır. 1983-cü ildə AMEA-nın həqiqi üzvü seçilmişdir.

Tələbəlik illərinə təsadüf edən ölkəmizdə və dünyada traxoma xəstəliyinin yayılması Zərifə xanımın göz həkimliyini özünə ixtisas kimi seçməyinə səbəb olmuşdur. Azərbaycan Tibb İnstitutunu bitirib Moskvada ixtisasartırma kursu keçərək Azərbaycana qayıtdıqdan sonra Zərifə xanım özünün elmi fəaliyyətində bu sahəni tədqiqat obyekti seçir və 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edir. Bununla kifayətlənməyən Zərifə xanım öz elmi araşdırmalarını yenə də davam etdirir. Artıq onun elmi araşdırmalarının istiqaməti dəyişir və alim görmə orqanlarının peşə patologiyaları məsələləri ilə maraqlanmağa başlayır. Bu sahənin ilk fundamental elmi-tədqiqatçılarından olan Zərifə xanım peşə oftalmologiyasının əsasını qoyaraq həyatını Azərbaycanda müxtəlif sahələrdə çalışaraq kimyəvi təsirlərdən öz sağlamlığını itirən insanların müalicəsinə həsr edir. Həmin dövr üçün bu mövzu olduqca aktual idi, çünki artıq Azərbaycanda kimya sənayesi sürətlə inkişaf edirdi və bu sahənin insanların sağlamlığına mənfi təsirinin qarşısının alınması bir zərurətə çevrilmişdi.

Zərifə xanım iş saatlarının böyük bir hissəsini iş otağında deyil, istehsalatda keçirmiş, Bakı Məişət Kondisionerləri Zavodu, Bakı Şin Zavodu, Yod Zavodu, Sumqayıt Üzvi Sintez İstehsalat Birliyində apardığı müşahidələr maraqlı elmi nəticələrə gəlməyə imkan vermişdir. Bu nəticələr üçün O təkcə insanlar yox, təbii şəraitdə heyvanlar üzərində də müşahidələr aparmışdır. O bu sahədə çalışanların görmə orqanlarında yaranan peşə xəstəliklərini müəyyən etmiş və onların profilaktikasını işləmişdir. Məhz onun səyləri nəticəsində Azərbaycanda oftalmologiya elmi inkişaf etdi və öz inkişafına görə SSRİ məkanında geri pillələrdən önə addımladı. 1977-ci ildə Zərifə xanım "Azərbaycanın kimya sənayesi işçilərində görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etdi.

Zərifə xanım Əliyevanın bir alim kimi fitri istedadı, elmə olan tükənməz həvəsi və sevgisi öz bəhrəsini vermiş, Zərifə xanım həm öz sağlığında həm elm, həm də tibb sahəsində, eləcə də pedaqoji fəaliyyətdə əsl nümunəyə çevrilmişdir.

Zərifə xanım həm də gözəl natiq idi. Müasirləri, həmkarları yazır ki, onun çıxışları müxtəlif elmi yığıncaqlarda həmişə dinləyənlərdə heyranlıq doğururdu. O özünün elmi araşdırmalarının nəticələrini çox aydın, anlaşıqlı şəkildə şərh edir, dinləyicilərdə maraq doğura bilirdi. Zərifə xanım maraqlı həmsöhbət, qayğıkeş, zərif və həssas qəlbi olmaqla yanaşı, həm də çox prinsipial insan idi. Ədəbiyyata, incəsənətə dair dərin məlumatı, zəngin musiqi duyumu var idi. Özü də pianoda gözəl ifa edə bilirdi. Zərifə xanımın cazibədarlığı, ətrafdakıların dərdinə şərik ola bilmək bacarığı, öz işinə, ailəsinə, dostlarına sadiqliyi, xeyirxahlığı hamı tərəfindən bilinirdi. Bu xüsusiyyətlər Zərifə xanımın bir həkim kimi də öz xəstələri ilə yaxın ünsiyyət qurmasına, onların gələcəyə olan ümidlərinin yenidən cücərməsinə imkan verirdi.

Apardığı zəngin araşdırmalar, əldə etdiyi dəyərli elmi nəticələrlə yanaşı, "Əsl həkim necə olmalıdır?", "Həkim-xəstə münasibətləri" kimi məsələlər də Zərifə xanımı daim düşündürmüş, O öz tədqiqatlarında yeri gəldikcə bu mövzulara toxunmuş, məqalələr, monoqrafiyalar yazmışdır. "Yüksək əqidə", "Həkimin yüksək vəzifəsi", "Oftalmologiyanın aktual problemləri" əsərlərində tibbi etika, vəzifə borcu məsələlərini şərh edərək həkim və xəstənin qarşılıqlı əlaqələrinin qaydalarını müəyyən etmişdir. "Həkim xəstənin ən doğma adamıdır", – deyən Zərifə xanım sağlamlığını itirmiş həssas insanların qəlblərinə toxunmağın, onları, ilk növbədə, öz isti münasibəti ilə müalicə etməyin həkimin birinci vəzifəsi olduğu qənaətinə gəlmişdir. Təsadüfi deyil ki, həmkarları həmişə ən ərköyün xəstələrin Zərifə xanıma tapşırıldığını deyirdilər. Onun fikrincə, xəstəliyi müalicə etmək hələ son məqsəd deyil. Həkim həm də xəstəni şəxsiyyət kimi yenidən həyata qaytarmağı bacarmalıdır.

Zərifə xanım Əliyeva, eyni zamanda müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin – Ümummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı idi. Həmişə Zərifə xanımdan böyük hörmət və məhəbbətlə söz açan Heydər Əliyev deyirdi: ***"Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və O, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və O da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib".***

Özünün kamil insani keyfiyyətləri, müdrikliyi ilə həm iş həyatında, həm də şəxsi həyatında nümunə olan Zərifə xanımın mənalı ömür yolu, həyatı və fəaliyyəti ilə Azərbaycan qadınının ən gözəl nümunəsinə çevrilmişdir. Rusiyalı həmkarı, Əməkdar elm xadimi N.B.Şulpina Onun haqqında yazır: "Bir qadın kimi də Zərifə Əziz qızı haqqında bir neçə kəlmə deməyə bilmərəm. Təbiət Ona qeyri-adi qadın cazibədarlığı bəxş etmişdi. Onun görkəmi, qalın saçları, sifətinin qövsləri, cizgisi, açıq alnı, insanın qəlbini riqqətə gətirən qara gözləri heyranlıq doğurmaya bilməzdi. Zərifə Əziz qızının bütün varlığı hərəkətlərindən və üzünün mimikasından oxunurdu. Mən Onu heç zaman əsəbi, qəzəbli görməmişəm. O, həmişə güləruz, xeyirxah idi. Zərifə xanımın əlləri xüsusilə də valeh edirdi. Bu balaca qadın-cərrah əlləri sanki təmasda olduğu hər şeyə istilik verirdi, eyni zamanda bu əllərdə ailə qayğılarının, qadın əməyinin izlərini də sezmək mümkün idi".

Zərifə xanım öz peşəsini həddən artıq çox sevirdi. Onun nə qədər müqəddəs bir iş olduğunu və insanlara işıq bəxş etməyin ucalığını yaxşı anlayırdı. O öz sahəsi üzrə kadr hazırlığında da fəal iştirak etmiş, onun rəhbərliyi ilə böyük bir həkim və alimlər nəsli yetişmişdir.

Apreldə dünyaya göz açan Zərifə xanım Əliyeva elə aprel ayında da bu dünyadan köçdü. Lakin insan həyatının uzun və ya qısalığı onun yaşadığı illərdən daha çox onun əməlləri, həyatın mənası ilə ölçülür. Bu mənada, baxmayaraq ki, Zərifə xanımın həyat yolu tez qırıldı, amma O öz əməlləri ilə, yaratdığı əsərlərlə yaşayır.

**Nuray ƏLİYEVA**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent***

*"Azərbaycan elminin sönməyən ulduzu Zərifə xanım kim idi? İlk növbədə, adı böyük hərflə yazılmış insan. Azərbaycanın savadlı, istedadlı, alicənab qızı. O yaşayırdı, işləyirdi, çalışırdı. Yanaraq ətrafdakı insanları həyata, elmə xoşbəxtliyə çağıran, yolunu insanlaşdıran sənətkar idi".*

***Professor Zəhra Quliyeva***

*Zərif ürəklidi*
*o məğrur qadın*
*o əziz qızını el əzizlədi.*
*O, igid Nüşabə*
*O, Burla xatın*
*Xalqını işığa, nura səslədi.*

*Azərbaycan qadını! Bu kəlməni bütün məsuliyyəti ilə daşıyan, geniş dünyagörüşünə malik olan, yüksək mənəvi keyfiyyətləri özündə birləşdirən Zərifə xanım Əliyeva! Şəfalı əlləri ilə insanlara nur bəxş edən şəxsiyyət! Azərbaycan elminin zirvəsində dayanan, dərin erudisiyaya malik, peşəkar elmi kadrların hazırlanmasında böyük xidmətləri olan, akademik Zərifə xanım Əliyeva! Ən əsası isə qayğıkeş həyat yoldaşı, fədakar ana, bütün ömrünü ailəsinə, övladlarına həsr etmiş gözəl insan!*

## Zərif qəlbin ziyası

Bəli, eyni anda həm ailənin bütün qayğılarını öz üzərinə götürmək, həm də yüksək elmi fəaliyyətlə məşğul olmaq asan iş deyil. Məhz bütün ağırlıqları Zərifə xanım Əliyeva heç yorulmadan illərlə öz zərif çiyinlərində daşımışdır. Zərifə xanıma ən yüksək qiyməti isə Ümummilli Lider, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev vermişdir: ***"Zərifə xanım çox böyük alim olub. Mən hələ Onunla həyat quranda O, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. Ona görə də bu gün bizim üçün müqəddəs gündür..."*** Heydər Əliyev kimi dahi şəxsiyyətin həyat yoldaşı olmaq, bu məsuliyyəti daşımaq, təbii ki, şərəfli olduğu qədər də mətinlik və iradə tələb edən bir işdir. Zərifə xanım Əliyeva bu məsuliyyəti bütün gücüylə öz üzərində daşıyırdı. Elm sahəsində yüksək ixtiraları ilə qətiyyətli bir alim kimi özünü göstərən Zərifə xanım həm də sadə, mehriban, övladlarını dərin məhəbbətlə sevən bir ana kimi yaddaşlara həkk olub. Tibb elminin inkişafında bir çox uğurlara imza atmış bu zərif qəlbli xanım ömrünün sonunadək sadəliyini, insanpərvərliyini qoruyub saxlaya bilmişdir. Məhz bu səbəbdən Zərifə xanımın adı çəkilərkən onun adının yanında peşəsi və işıqlı təbiəti ilə bağlı "nur, işıq" sözləri daha çox işlənir. Zərifə xanım, eyni zamanda gecə-gündüz yorulmaq bilmədən Azərbaycanın dövlətçiliyi naminə çalışan bir insanı tükənməz sevgi və qayğı ilə əhatə edərək ona əsl dost, yaxın silahdaş və mənəvi dayaq oldu. Bu məqamda şairə Mirvarid Dilbazinin Zərifə xanımın vəfatı ilə bağlı qələmə aldığı "Unudulmaz Zərifə xanımın əziz xatirəsinə" adlı şeirdən aşağıdakı misralar yada düşür:

*Zəriflər zərifi, Zərifəmiz, sən,*
*Nə ülvi qadınsan, nə zəngin xilqət,*
*Sənsiz gözüyaşlı qalan məhəbbət*
*Sənin şöhrət oldu təmiz adına.*
*Eşq olsun qüdrətli o sərkərdənin*
*Qəlbini fəth edən müdrik qadına!*

Bəli, Zərifə xanım milyonların qəlbində taxt quran, milli və bəşəri dəyərləri öz xarakterində cəmləşdirən bir ziyalı kimi tanınıb. Bir oftalmoloq həkim kimi onun zərif qəlbinin ziyası bütün xəstələrinin üzərinə düşüb. Öz qəlbinin hərarəti, xeyirxahlığı, şəfalı əlləri ilə xəstələri arasında böyük nüfuz qazanıb.

Bu gün fəxr edirik ki, Zərifə xanım Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Ali Baş Komandan, qalib sərkərdə, xalqımızı işıqlı sabahlara doğru aparan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin anasıdır. Fəxr edirik ki, Azərbaycan qadınına məxsus bütün milli xüsusiyyətləri özündə cəmləşdirən Zərifə xanım Əliyeva məhz xalqımıza beynəlxalq aləmdə öz sözü, siyasi gücü ilə tanınan qalib sərkərdə bəxş edib. Fəxr edirik ki, xalqımızın Zərifə xanım kimi ziyalı, insanların sağlamlığı keşiyində dayanan, xeyirxah əməlləri ilə onlarla ailənin məhəbbətini qazanan mərd qızı, alimi var.

Pak, təmiz qəlbli, xeyirxah insanlar həmişə həyatda əməlləri ilə yaşar. Zərifə xanım Əliyeva da tarixə həkk olmuş belə nurlu qadınlarımızdandır. Zərifə xanım əsl ziyalı kimi mənalı ömür yolu keçib. Onun ömrünün ziyası cəmiyyətin bütün təbəqələrinə sirayət edib. Zərifə xanım Əliyeva Azərbaycan ziyalısının ən gözəl nümunəsinin əksidir. Ana, qadın, həyat yoldaşı ifadələrini bütün dolğunluğu ilə öz şəxsiyyətində yaşadan, zəriflik mücəssəməsi gözəl insan! Ruhun qarşısında baş əyirik:

*Tunc heykəli qəlblərdə*
*Ucalan abidədir,*
*Solmayan sevgisindən*
*Səpələnir xoş ətir.*
*İlləri salamlayan*

*Bir şirin salnamədir,*
*Analıq məbədini*
*Özü şöhrətim, şanım,*
*Şərafət kürsüsünün*
*Adı Zərifə xanım!*

**Xumar MƏMMƏDOVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının dosenti***

# 148 illik şərəfli mətbuatın el ağsaqqalı, bütün zamanların Molla Nəsrəddin babası

## *Molla Nəsrəddin babaya xitabən ...*

Salam olsun sənə, ey mətbuatımızın el ağsaqqalı, bütün zamanların müasiri, azadlıq kəlmələrinin ulu carçısı, kefli İsgəndərin, Mozalan bəyin dilindəki həqiqət yanğısı, usta Zeynalın, Qurbanəli bəyin, Məhəmmədhəsən əminin həmyaşıdı, Mirzə Cəlilin qəlbindəki hürriyyət eşqi, yaratmaq, yaşatmaq vüsalı, salam olsun sənə, ey Molla Nəsrəddin baba. Salam olsun ləblərindən süzülən həqiqətlərə, dilindəki "biçarə xalqım!" kəlmələrinə, 25 illik şərəfli ömründə millətindən başqa heç nə düşünməyən, senzuralara, buxovlara, ağır tənqidlərə, təqiblərə məruz qalan, lakin yolundan dönməyən o pak əqidənə salam olsun. Nə az, nə çox, düz 117 il öncə qədəm qoymuşdun Vətənimizin zülmət sabahına. Hər kəlməndən hiss olunurdu qəlbində daşıdığın Vətən yanğısı. Xalqımıza etdiyin o ilk, lakin tarixi müraciətinə də belə başlamışdın: "*Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım. O kəsləri deyib gəlmişəm ki, mənim söhbətimi xoşlamayıb, bəzi bəhanələrlə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılma qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hükəmalar buyurublar: "Sözünü o kəslərə de ki, sənə qulaq vermirlər". Ey mənim müsəlman qardaşlarım, zəmani ki, məndən bir gülməli söz eşidib, ağzınızı göyə açıb və gözlərinizi yumub, o qədər "ha-ha" edib güldünüz ki, az qaldı bağırsaqlarımız yırtılsın və dəsmal əvəzinə ətəklərinizlə üz-gözünüzü silib, "lənət şeytana" dediniz, elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz. Ey mənim müsəlman qardaşlarım, əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz aynanı qabağınıza və diqqətlə baxınız camalınıza. Sözümü tamam etdim, ancaq bircə üzrüm var: məni gərək bağışlayasınız, ey mənim türk qardaşlarım ki, mən sizlə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dili danışmaq eyibdir və şəxsin elminin azlığına dəlalət edir. Amma hərdənbir keçmiş günləri yad etmək lazımdır; salınız yadınıza o günləri ki ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay-lay deyirdi və siz qulaq ağrısı səbəbinə sakit olmurdunuz. Axırı biçarə ananız sizə deyirdi: – Bala, ağlama, xortdan gələr, səni aparar. Və siz dəxi canınızın qorxusundan səsinizi kəsib, ağlamaqdan sakit olurdunuz. Hərdənbir ana dilini danışmaqla keçmişdəki gözəl günləri yad etməyin nə eybi var?*"




Sən mətbuatımıza ilk qədəm qoyduğun andan etibarən azadlıq və hürriyyət ideyalarının bayraqdarı, istiqlal və mübarizənin rəhbəri olmuşdun. Millətin avamlığı, cahilliyi qəlbini parça-parça etsə də, uzaq Şərq xalqlarının tarixindən səni Vətənimizə dəvət edən, sənə həyat verən Mirzə Cəlilin mənəviyyatına qüssə-qübar niqabı çəksə də, yenə də dik dayandın. İnsanların biganəliyi, yarıtmaz hakimiyyətin səni məhv etmək cəhdinə "Lal ol və danışma", – dedin. Satirik şeirləri elə sənlə eyni gündə dünyaya gələn ustad Mirzə Cəlilin xalqa çatdırmağın üçün sənə tapşırdığı "Lisan bəlası" adlı ilk satirik şeiri birinci sayında dərc etdirməklə gəldin görüşümüzə. Gələn ayaqların var olsun! Bu şeirlə Cəlil Məmmədquluzadə gələcək mollanəsrəddinçi satirik şairlərə, yəni sənin mübariz ardıcıllarına nümunə göstərdi, istiqamət verdi. Bu şeir uzun illər mənəviyyatı tapdalanan Azərbaycan türkünü özünüdərkə, oyanışa, hüquqları uğrunda mübarizəyə səslədi:

*Ey dil, dinmə və sükut et, səni tarı,*
*Lal ol və danışma.*
*Sal başını aşağə və heç baxma yuxarı*
*Mal ol və danışma.*

Min illər azadlığı qoparılan, zəncirlənmiş Prometeytək canı ac-yalavac heyvanlar tərəfindən didilib-dağıdılan millət elə bərk yatmışdı ki, nə etdinsə oyanmadı. Axır ki, müdrikliyin, ağlın, uzaqgörənliyinlə bir əlac tapdın: millətin üzərinə maarif işığı salmağa başladın. Sənin hikmət dolu nəsihətlərini eşidən ardıcılların, mətbuatımızın Mozalanı (Mirzə Cəlil), Hərdəmxəyalı (M.S.Ordubadi), Cüvəllağı bəyi (Əliqulu Qəmküsar), Yetim cücəsi (Əli Məhzun), Hop-hopu (Mirzə Ələkbər Sabir) və digər maarif fədailəri məktəblə, kitabla, qəzetlə, jurnalla insanlara təsir etməyə üz qoydular. Hər həftə işıqüzü görən və sənin adınla xalqa ümid işığı verən "Molla Nəsrəddin" jurnalı millətin oyanışına kömək əlini uzatdı, özünün şirin-şəkər təbirincə desək, qulağına bir para şeylər söylədi, rəngli mühitin rəngarəng insanlarının özrəng xarakterlərini göstərdi. Axırı necə oldu:

*Biz fəqirə axırı rəhm eyləyib biganələr,*
*Açdılar mədrəsələr, klub, qiraətxanələr,*
*Yazdılar kitab, qəzet, xərc etdilər xəzanələr*
*"Molla Nəsrəddin" dedi hər həftə*
*bir əfsanələr,*
*Müxtəsər, hər bir əməl çıxartdılar,*
*oyanmadım.*

Xalqla görüşdüyün ilk gündən etibarən yol göstərmək, istiqamət vermək, təsvir etmək üçün böyük Mirzə Cəlillə düşünüb tapdığın, kəşf etdiyin xüsusi bölmələr – "Teleqramlar", "Atalar sözü", "Poçt qutusu", "Bilməli xəbərlər" və digər yeni rubrikalar səndən sonra uzun illərboyu sənin adını daşıyacaq mollanəsrəddinçi publisistikanın əsas, aparıcı səhifələrinə çevrildi. Bu gün də qürurla deyirik ki, ədəbiyyatımızın əsas aparıcı qüvvəsi sayılan satiranın bütün gücü və imkanları mollanəsrəddinçilik təlimində öz əksini tapır. Günümüzdə adını qürurla yaşadan akademik İsa Həbibbəylinin sənin haqqında söylədiyi yüksək fikirlərə nəzər yetirək: "Molla Nəsrəddin" jurnalının dili, üslubu, janrları, tipajları, karikaturaçılıq mollanəsrəddinçi poetikanın əsasını təşkil edir. Mollanəsrəddinçiliyi satirik publisistikanın siyasi kəsəri, yüksək vətəndaşlıq ruhu, forma müxtəlifliyi, zəngin sənətkarlıq imkanları kimi də başa düşmək olar. Mollanəsrəddinçilik – ədəbiyyatda və ictimai fikirdə demokratik proseslərin genişləndirilməsi və müdafiə olunması deməkdir".

Dilindən süzülüb gələn həqiqətlər nə yazıq ki, cəmiyyətin bir çox təbəqəsi tərəfindən xoş qarşılanmadı. Baxmayaraq ki, xoş sədan Cənubi Azərbaycan sərhədlərindən başlayaraq bütün Şərq xalqlarına qədər yayılmışdı. Lakin uzun illər əqidəsi yolundan azdırılan, düşüncəsi təzyiqlərə məruz qalan, milli-mənəvi dəyərləri, tarixi kimliyi əlindən alınan millətimizin sənin sözlərini başa düşməməsi də təbii idi. Buna görə onları qınamaq olmaz. Axı onların bu vaxta qədər nə azadlıq şüarı söyləyən ziyalısı, nə də müstəqillik tələb edən ağsaqqalı olmuşdu... Sənin barəndə onlara söylənən, təbliğ edilən fikirlər isə uzun illər səninlə çiyin-çiyinə çalışan dövrünün tanınmış yazıçısı Əbdürrəhim bəy Haqverdiyev tərəfindən xatirələrində öz əksini tapmışdı: "Molla Nəsrəddin" adlı jurnalın ilk nömrəsi şəhər əhalisi arasında bir bomba tək partladı. Zamanəsinin mollaları insanlara ərz edirdi ki, bu jurnal gərək bir müsəlmanın evinə girməsin, onu nəinki oxumaq, ələ belə almaq haramdır; onu maşa ilə götürüb ayaqyoluna atmaq lazımdır".

...Bütün bu çətinliklərə rəğmən bir an belə olsun, öz yolundan ayrılmadın, mübarizə apardın, gəlimli-gedimli, bir ucu ölümlü dünyayla, daha doğrusu, bu dünyanın xalqının başına gətirdiyi acı tale ilə. Sənin vasitənlə insanların qəlbində qaysaq bağlamış, tarixin bir küncündə itib-batmış nələr gətirilmədi ki, günümüzə, nələrdən danışılmadı ki... 117 yaşın olmasına baxmayaraq, ruhunun təravəti hələ də yaşayır, dediklərin hələ də öz tarixiliyini qoruyur. Yenə də avamlar, cahillər, nadanlar, yenə də müharibələr, davalar, intriqalar...Amma sən həmişə öz saf əqidənlə xalqına yol göstər, Molla Nəsrəddin baba. Heç zaman unudulmayacaq Vətən sevdalı, müqəddəs əqidəli qələm sahiblərinin saf ruhuna, ləblərindən süzülən həqiqətlərə dərin hörmət və ehtiramla...

✍ **Məcid RƏŞADƏTOĞLU**

# Ağırlıqqaldırma yarışı keçirilib

*Şərur Olimpiya İdman Kompleksində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə qızlar və oğlanlar arasında ağır atletika üzrə açıq turnir keçirilib.*



Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı yarışın gedişatını izləyib.

Şərur Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə reallaşan turnir dahi şəxsiyyətin xatirəsini yad etmək, ağır atletikanın inkişafı və təbliğinə şərait yaratmaq məqsədi daşıyıb. Yarışın əvvəlində "Şərur" Xalq Yallı Ansamblının "İnci" qrupu tərəfindən tamaşaçılar üçün musiqili kompozisiya təqdim edilib. Sonra sağlamlıq imkanları məhdud atletlər bacarıqlarını nümayiş etdiriblər. Ardınca turnirə start verilib. Azyaşlı idmançıları ruhlandırmaq məqsədilə yarışa qatılan ağır atletika üzrə Azərbaycan çempionları Həsən Babayev və Gülcahan Əliyevanın nümunəvi çıxışı iştirakçılar tərəfindən maraqla izlənilib. 19 idmançının iştirak etdiyi yarışın nəticələrinə gəlincə, Cəmilə İbrahimova, Ümid Babayev, Əlirza Hüseynov, Mikayıl Novruzov, Məhərrəm Qubanlı, İlkin Kərimov və Fəxrəddin Allahverdiyev öz çəki dərəcələrində qalib olublar.

İlk üç yerin sahibləri diplom və hədiyyələrlə mükafatlandırılıb. Ağır atletika sahəsindəki səmərəli fəaliyyətinə görə məşqçilər Şəfi Hüseynov və Anar Əliyev fəxri fərmanla təltif olunub. Əməkdar məşqçi Şəfi Hüseynov davamlı diqqət və dəstəyə görə minnətdarlıq edərək nazir Ramil Hacıya Şərur ağır atletika bölməsinin xatirə plaketini təqdim edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Mollanəsrəddinsayağı*

# Ərməniynən dust olmax

***(Felyeton)***

Yenə deyəcəksiz ki, baba, nə tutmusan bizim ərməniynən dust-qərdaş olmağımızın ətəyindən? Ötür rədd olub getsinnər da. Siz də yaxçı bilirsiz ki, indi internet, "Tik-tok" dövrüdü, adamlar heç ruznamə də oxumağa vaxt tapammır o ki qaldı mənim bu gileyimi oxusunnar. Əmma bu gecə oturub hətmən bu məktubu ona görə yazdım ki, Arazın o tayındakı müsəlman qərdaşdarımıza ərz eliyim ki, biz ərməniynən nədən dust olmuşux. Bilmirəm birdən deyərssiz ki, ağa, bə bu nə səfeh sualdı, axı İranda kullən kimdən soruşsan ki, türkü çox sövərsiz ya ərmənini, siz də bilirsiz, Həzrət Abbasa da and içərəm ki, bizim kişvərdə bir dənə axmağ adam tapammazsan ki, bu dığaları it yerinə qoysun. Vəli, neyniyax ki, indi elə pis zamandı ki, məcbur tutmuşux bu dinsiz-imansızların ətəyindən ki, baba, bu İrəvannan Tehran elə dünyeyi-qədimdən bir saqqalın tükləridi ki, qoşa bitiblər, biz də onlardan qopammırıx.

"Saqqal" dedim, əsas mətləbə keçmədən sizə ərz eləyim ki, indi kulli İranda təzə dəb düşüb, deyirlər, xanımlar başını açandan sonra ağalar da saqqala pis baxırlar. Küçədə də kimdən soruşursan, deyir ki, bəs bizim mollalar saxtakardılar. Niyə, düz deyirlər da, elə hər saqqal saxlayan müsəlmandırsa, onda gərək bu Paşinyan da hər yekşənbə İrana gəlib yerdə-yurdda qalanları başına toplaya ki, bəsdir küncdə-bucaqda gizlincə kişmiş arağından vurub, dininizə əməl eləmirsiz! Elə düzü, mən də qeyrətimə sığışdırmanam ki, bizim bu qədər tariximiz, mədəniyyətimiz ola-ola, hər dəfə bu ərmənilərnən ağız-ağıza öpüşüb, yalandan dust olduğumuznan fəxr eliyax.

Əziz, müsəlman qərdaşdar, ərməninin canı cəhənnəmə, əmma bu siyasət ki var, elə bir zaddı ki, bizim bu kişvərdə adamın başını lap xarab eliyər. Mən də oturub fikirləşirəm ki, aya, bu mollaların yerinə özüm olsaydım, görəsən, nə olardı axırım!? Axı adam nə də qədər yalan danışar, nə qədər dostu-düşməni bir-birinə qatışdırar? İranda da çox müşkül işlər ki var, onlarnan baş eləmək hər adamın işi deyil. Bu qədər nəfti, qazı olan kişvərdə indi ətin kilosu olub əlli min tümən, millətin cibində siçanlar oynaşır. Elə ki bu Əmirkaynan ki düşmən oldux, onda kül oldu başımıza. İndi nə pulumuz puldu, nə malımız mal. Səfeh mollalar da bir tərəfdən tərs damarına salıb ki, gərək İsrail Fələstindən çıxa ki, biz də rahat nəfəs alax. Bir nəfər oturub başa salan yoxdu ki, baba, sən özün Suriyadan, Yəməndən çıxırsan, o da ordan çıxa?! Elə Fələstinin təəssübü sənə qalıb? Qoy ərəblər özdəri desinnər da. Ərəb oturub, Əmirkada, Almanda yeyib-içir, kef eləyir, pul qazanır, biz də burda dərd-qəm çəkirix.

O büri tərəfdən də adımızı batırıb, dədə-baba qonşumuz Azərbaycanla düşmən olurux ki, bə sən niyə Qərəbağı ərmənidən geri aldın! Adamnan soruşmazdar ki, indi dünyada heç ömründə bircə dəfə də Azərbaycanda olmayan bir nəfər də varmı ki, durub ərməniyə deməsin ki, – itil get xarabana, bəsdir gül kimi yerləri viranə qoydunuz! Deyirəm ki, vallah Azərbaycandı ki səbir eliyir. Mən olsaydım, bizim Ərdəbil tacirləri kimi oturub, bircə-bircə hamısını yazardım, bax Füzulidən Kəlbəcərə, Zəngilandan Tərtərə qədər nə qədər kənddən, şəhərdən qapı-pəncərə söküb İranda satmısan, qeytər pulumu! Di dillən, səsin çıxsın görüm, necə çıxacax? Baba, bu ərməni ki var, üz verirsən astar istəyir. Adamların hər yerdə adamı var. Elə bizim mollalar da bundan qorxurlar da. Yoxsa nəyimizə lazım ki, oturub ərməniynən dust olax, Qafanda tavla kimi yerdə konsullux açax... Bizimki elə üzdən, yalandan dust olmaxdı. Keçəndə ağayi Nikol Tehrana gələndə bizim rəisi cumhurla görüşüb qucaqlaşdılar, əmma ə tövbə, hamı da tilivizyonda gördü ki, bizim ağalardan bircə nəfər də xanım Annanın əlini sıxmadı. İranda hər kəs öz xanımından betər qorxur axı. Evə gələndə saqqalını yolarlar.

Qoy cəhənnəm olsun bu ərməniləri! Onsuz da onnarın axırı yoxdu. Azərbaycana uduzublar, gedib Əmirkada, Yurupda bizdən də desələr onda vay halımıza. Bəli, indi gördüz ki, bu bir siyasətdi ki, bizim mollalar aparır, yaxında İranı da şeytanın şərindən hifz edəcək. Yoxsa siz Allah, bizdən küsməyin, axı biz müsəlman bacı-qərdaşdarıyıx.

Bə nə tez unutduz? Yadızdadı, şurəvi dağılanda sizin nə qədər bərqi vəsailiniz vardı biz aldıx da su qiymətinə. İndi də elə hey ucuz-ucuz xurmadı, düyüdü, aftafadı ki, biz göndərəy da Azərbaycana. Nə görmüsüz bu Türkiyədə? Ya elə bilirsiz İran olmasa, Pakistan sizə ucuz düyü verər? Yox baba! Heç bir kilo da verməz. Sözümün canı odur ki, biz ərməniynən dust olarıx, əmma sizi də unutmarıx. İnşallah ki zamanı var! Hətmən ki, bir gün gələr, İranda da hamı əyağa qalxıb deyər ki: "Nooldu, Paşinyan?!

**Güneyli Əhməd**

### *İtmişdir*

Məmmədova Lamiyə Rza qızının adına olan torpağın plan-ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şirəliyev İbrahim Kifayət oğlunun adına 08.07.2000-ci il tarixdə "Naxçıvan" Universiteti tərəfindən verilmiş A-065374 nömrəli diplom itdiyindən etibarsız sayılır.

***

Hüseynov Hikmət Neymət oğlunun adına olan M/V 056964 nömrəli veteran vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Hacıvar kənd sakini Məmmədova Qəmər Nabatalı qızının adına olan $171^{A}$ inventar nömrəli, 10312038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Məcid Əkbərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 297